**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**LÜTVİYYƏ SÜLEYMAN QIZI ƏSGƏRZADƏ**

# HÜSEYN CAVİD VƏ ŞƏRQ

10.01.01- Azərbaycan ədəbiyyatı

*Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın*

# AVTOREFERATI

AMEA İNFORMASİYA TEXNOLOGİYALARI İNSTİTUTU

NAXÇIVAN- 2005

12.05.2005

İş Naxçıvan Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**ELMİ RƏHBƏR:** Filologiya elmləri doktoru, professor
*Teymur Əkbər oğlu Əhmədov*

**RƏSMİ OPPONENTLƏR:** Filologiya elmləri doktoru, professor
*Kamran İmran oğlu Əliyev*

Filologiya elmləri namizədi
*Fərman Yunis oğlu Xəlilov*

**APARICI TƏŞKİLAT:** Naxçıvan Müəllimlər İnstitutu

Müdafiə «24» oktyabr 2005-ci il tarixdə saat $11^{00}$ -da Naxçıvan Dövlət Universiteti nəzdindəki N 02. 121 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

ÜNVAN: Az 7012, Naxçıvan şəhəri, Universitet şəhərciyi, Əsas bina, I mərtəbə, Böyük Akt zalı

Dissertasiya ilə Naxçıvan Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat 22 sentyabr 2005-ci il tarixdə göndərilmişdir.

**DİSSERTASİYA ŞURASININ ELMİ KATİBİ:** **İ.Z.CƏFƏROV,**
filol. e. n.

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XX yüzilin 70 ili müddətində, başqa sözlə, sovetlər dönəmində Azərbaycan xalqını bir xalq kimi SSRİ- daxilində əritmək üçün xalqımızın Şərqlə bağlılığını unutdurmağa çalışır, bir çox klassiklərin əsərləri əsasən Avropa yazıçılarının yaradıcılıqları ilə müqayisəli şəkildə araşdırılırdı. Hətta dahi Hüseyn Cavidin yaradıcılığında mövzuların əksəriyyəti Şərqdən alınsa da, elmi təhlillərdə Hüseyn Cavid Qərbin Şekspir, Bayron kimi yazarları ilə müqayisədə öyrənilirdi. Bu halda sözsüz ki, Cavid sənətinin yüksək səviyyədə dəyərləndirilməsindən söz açıla bilməzdi. Hüseyn Cavid Azərbaycan ədəbiyyatında Qərb ədəbi ənənələrini yaşatdığı kimi, söz sənətində məhz dahi şərqli olaraq görünmüş, az qala hər bir əsərində Şərqlə bağlılığını dönə-dönə_təsdiqləmişdir. Qətiyyətlə demək olar ki, Cavid sənətinin bütün keyfiyyətləri ilə görünməsi üçün ədibin Şərqlə bağlılıqlarının araşdırılması olduqca zəruridir. Bəli, vaxtilə qoyulmuş qadağa və məhdudiyyətlər aradan qalxdığı indiki zamanda «Hüseyn Cavid və Şərq» mövzusunun sistemli şəkildə tədqiqi bu gün aktuallıq kəsb edən mühüm bir məsələdir.

Mövzunun aktuallığını şərtləndirən amillərdən biri də Hüseyn Cavidin bir yaradıcı şəxsiyyət kimi Qərb və Şərq mədəniyyətlərinin qovuşağında təşəkkül tapıb, dahi sənətkara çevrilməsidir. Cavidin Qərbdən və Şərqdən aldığı mədəni-elmi enerji və qüvvənin, ədəbi-dramaturji materialın, mövzu və obrazların nisbətini müəyyənləşdirmək baxımından da təqdim etdiyimiz dissertasiya aktuallıq kəsb edir.

Fikrimizcə, tədqiq etdiyimiz mövzunun aktuallığı, dəyər və əhəmiyyəti həm də onun ədəbiyyatşünaslığımız üçün perspektivdə duran elmi-tədqiqat mövzularının hazırlanıb işlənməsində çox gərəkli olması ilə şərtlənir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyektini geniş mənada Hüseyn Cavidin yaradıcılığı , onun ədəbi-bədii irsindəki Şərqlə bağlı əsərləri və onların yüksək ideya-estetik dəyərləri təşkil edir. Dissertasiyada həmçinin Hüseyn Cavidin həyatı və yaradıcılığına həsr edilmiş məqalə və monoqrafiyalara da istinad olunur.

Tədqiqatın predmeti Hüseyn Cavidin Şərq mövzusunda yazdığı şeirlərdən, «Şeyx Sənan», «İblis», «Səyavuş» faciələri, «Topal Teymur», «Peyğəmbər», «Xəyyam» dramlarından, «Azər» poemasından ibarətdir. Bu və digər elmi əsərlərdə Cavidin Şərq kontekstində öyrənilməsi bizim araşdırmaya bir sox elmi-tədqiqat işlərinin məxsusən cəlb edilməsi ilə nəticələnmişdir. Bu mənada tədqiqatımızda istifadə edilən

bir sıra dəyərli elmi-nəzəri fikir və müddəalar da dissertasiyanın predmetinə daxil olmuşdur.

**Mövzunun tədqiqi tarixi.** Əlbəttə, Hüseyin Cavidin həyatı və yaradıcılığı onun öz dövründən başlayaraq bu günə qədər daim elm və sənət adamlarının diqqətini cəlb etmiş, bu istiqamətdə xeyli tədqiqat əsərləri meydana çıxmışdır.

Bir çox tədqiqatlarda XX əsrin əvvəllərindəki Azərbaycan ədəbiyyatı nəzər nöqtəsinə çəkilərkən Cavid sənətindən də söz açılmış, filosof şairin yaradıcılığı ümumi Azərbaycan ədəbiyyatı kontekstində öyrənilmişdir.

Qeyd edək ki, böyük şairin sağlığında yaranmağa başlayan cavidşünaslıq özünəməxsus bir tarixi inkişaf yolu keçmişdir və bu sırada Hüseyn Cavidin ayrı-ayrı əsərlərinə dair konkret monoqrafiya və dissertasiyaları ayrıca qeyd etmək lazımdır.[1]

Şübhəsiz ki, cavidşünaslığın inkişafında akademik Məmməd Cəfərin xidməti xüsusi dəyərləndirilməlidir. Bu görkəmli elm xadimi Hüseyn Cavidin ömür və sənət yolunu ayrıca tədqiq etməklə yanaşı, həm də Azərbaycan romantizmini daha çox Cavid sənəti fonunda araşdırmışdır. Qeyd edək ki, Hüseyn Cavidin yaradıcılığı öz ümumi məzmunu və ruhu etibarilə sırf Şərq ədəbi-estetik hadisəsi olduğuna görə onun sənətindən bəhs edən müəlliflər, o cümlədən Məmməd Cəfər, İsa Həbibbəyli, Yaşar Qarayev, Məsud Əlioğlu, Mehdi Məmmədov, Zahid Əkbərov, Əbülfəz İbadoğlu, Səlahəddin Xəlilov, Rəfiq Zəka, Hüseyn İsrafilov, Temurçin Əfəndiyev, Rəfael Hüseynov, Tahirə Məmməd, Vəli Osmanlı, Əjdər İsmayılov, Rasim Nəbioğlu və başqaları bu və ya digər dərəcədə «Hüseyn Cavid və Şərq» mövzusuna toxunmuşlar. Bununla belə, «Hüseyn Cavid və Şərq» mövzusu ilk dəfə bu dissertasiyada sistemli şəkildə tədqiq olunur.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın əsas məqsədi Hüseyn Cavid yaradıcılığında Şərq mövzusunu araşdırmaqdır. Bu məqsəddən irəli gələn aşağıdakı elmi vəzifələr yerinə yetirilmişdir.

- Hüseyn Cavid yaradıcılığında Şərq mövzusunu şərtləndirən amilləri üzə çıxarmaq;
- Hüseyn Cavid sənətində Şərq mövzusu ilə bilavasitə bağlı olan əsərləri müəyyənləşdirmək;

---

[1] Bax: İbadoğlu Ə.Hüseyn Cavidin «İblis» faciəsi. Bakı: Azərbaycan EA-nın nəşri, 1969; Əkbərov Z. Hüseyn Cavidin «Şeyx Sənan» faciəsi. Bakı: «İşıq», 1977 və s.

- Cavidin Şərqə poetik münasibətini aydınlaşdırmaq, Şərq mövzusunda olan şeirlərin ideya-bədii xüsusiyyətlərini üzə çıxarmaq;
- Hüseyn Cavidin istifadə etdiyi Şərq şeir şəkillərini müəyyənləşdirmək;
- «Azər» poemasında Şərq motivlərini müəyyənləşdirmək;
- «Şeyx Sənan», «İblis» faciələrinin ideya-məzmununu tədqiq etmək;
- «Topal Teymur» və «Xəyyam» dramlarında Şərq kontekstini araşdırmaq;
- «Peyğəmbər», «Səyavuş» faciələrində Şərq mövzusunu öyrənmək;
- Cavidin Şərq klassiklərinə münasibətini araşdırmaq;

**İşin elmi yeniliyi**. Dissertasiyada ilk dəfə Hüseyn Cavid yaradıcılığında Şərq mövzusu müstəqil bir problem kimi, xüsusi aspektdən sistemli və əhatəli elmi tədqiqatın probleminə çevrilmişdir.

Tədqiqatın elmi yeniliyini aşağıdakı cəhətlər müəyyənləşdirir:

İlk dəfə olaraq Hüseyn Cavidin yaradıcılığına Şərqə münasibət baxımından kompleks şəkildə yanaşılmışdır.

Hüseyn Cavid sənətində Şərq mövzusunu şərtləndirən ictimai, siyasi, sosial, mədəni amillər üzə çıxarılmış, prosesin ümumi qanunauyğunluqları müəyyənləşdirilmişdir.

Cavid poeziyasında Şərq şeir şəkillərindən istifadənin forma və metodları üzə çıxarılmış, Şərq ədəbiyyatına bağlılıq nöqteyi- nəzərindən Cavid şeirində ənənə və novatorluq məsələləri aydınlaşdırılmışdır.

Mövcud elmi ədəbiyyatlardan fərqli olaraq «Azər» poemasında Şərq həyatının inikası nəzər nöqtəsinə çəkilmiş, əsərdəki əsas surət vasitəsi ilə müəllifin Şərqə münasibəti elmi həllini tapmışdır.

Hüseyn Cavidin mövzusu Şərqdən alınan dramlarında - «Şeyx Sənan», «İblis», «Topal Teymur» və «Peyğəmbər» əsərlərində Şərq problemlərinin bədii həlli məsələsi öyrənilmiş, yekun elmi qənaətlər irəli sürülmüşdür.

Hüseyn Cavid və Ömər Xəyyam paralellikləri üzə çıxarılmış, Qədim Şərq fəlsəfəsinin yeni dövrdə təzahürü məsələləri aydınlaşdırılmışdır.

Hüseyn Cavid yaradıcılığında «Şahnamə» mövzuları öyrənilməklə dünya ədəbiyyatının məşhur süjetlərinin Hüseyn Cavid irsində yeri məsələsi elmi həllini tapmışdır.

**Tədqiqatın nəzəri-praktik əhəmiyyəti.** Orijinal bir mövzuda işlənmiş bu dissertasiyanın nəzəri əhəmiyyəti onun ehtiva etdiyi

elmi müddəalarda və ümumiləşdirmələrdədir. Tədqiqatda irəli sürülən bir sıra təhlil prinsipləri və çıxarılan nəticələr gələcəkdə meydana çıxa biləcək bu tipli elmi işlər üçün faydalı ola bilər.

Əsərdən ali təhsilin bakalavr və magistr pillələrini əhatə edən universitetlərdə XX əsr Azərbaycan ədəbiyyatı və ədəbi əlaqələr fənlərini tədris edərkən, habelə, xüsusi kurslarda bir vəsait kimi praktik şəkildə istifadə oluna bilər. İş təkcə ədəbiyyatşünaslıq baxımından deyil, həm də geniş mənada kulturoloji dəyərinə görə nəzəri-praktik əhəmiyyətə malikdir. Çünki Azərbaycan Qərb ilə Şərqin qovuşağında yerləşən bir Asiya ölkəsi kimi Avropa Şurasına daxil olubsa, deməli onun dünya mədəniyyətinə inteqrasiya edilməsinin tarixi və sosial amilləri bütün əhatəliyi ilə öyrənilməlidir.

Dissertasiyada irəli sürülən müddəalardan Azərbaycan ədəbiyyatı tarixinin, Şərq ədəbiyyatı tarixinin hazırlanmasında, orta və ali məktəblər üçün dərsliklərin yazılmasında istifadə oluna bilər.

**Tədqiqatın elmi-metodoloji əsası.** Tədqiqatın elmi-metodoloji əsasında görkəmli alimlərin, ədəbiyyatşünasların ümumnəzəri əhəmiyyət kəsb edən fikirləri, Azərbaycan ədəbiyyatşünaslığının və Cavidşünaslığın əsas təhlil prinsipləri dayanır. Burada yeri gəldikcə tarixi-müqayisəli metod da tətbiq edilmiş, Cavid yaradıcılığında Şərq mövzusunun elmi cəhətdən açılmasına kömək edən dialektik təfəkkür tərzinə də istinad olunmuşdur.

**Tədqiqatın aprobasiyası.** Dissertasiyanın mövzusu Azərbaycan Milli Elmlər Akademiyasının Əlaqələndirmə Şurasında və Naxçıvan Dövlət Universitetinin Elmi Şurasında təsdiq edilmiş, iş həmin universitetinin Azərbaycan ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

# TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın girişində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti və predmeti göstərilməklə problemin tədqiqi tarixinə nəzər salınır, dissertasiyanın məqsəd və vəzifələri, işin elmi yeniliyi, nəzəri və təcrübi əhəmiyyəti diqqətə çəkilir.

**«Hüseyn Cavidin poeziyasında Şərq»** adlanan I fəsil dörd yarımfəsildən ibarətdir. **«1.1. H.Cavid poeziyasında Şərq mövzusunu şərtləndirən amillər»** yarımfəslində şairin Qafqaz, İran, Türkiyə, habelə islam tarixindən mövzular almasının, yaşadığı cəmiyyətin əxlaqi aləmini, sosial problemlərini ümumtürk və ümumislam mövqeyindən təsvir etməsinin səbəbləri araşdırılmışdır. Əlbəttə, H.Cavidin Şərqin vaxtilə böyük elm və mədəniyyət mərkəzlərindən sayılan Naxçıvan diyarında anadan olması, ilk təhsilini burada alması, 1898-1903-cü illərdə Təbrizdə yaşaması, 1903-1904, 1905-1909-cu illərdə isə həyatının Türkiyə dövrü onun dünyagörüşünə əsaslı təsir göstərmiş, yaradıcılığında Şərq mövzusunun köklü yer tutmasını şərtləndirmişdir. Digər tərəfdən H.Cavidin anadangəlmə xəyalpərvərliyi, romantik təbii istedadı Şərq mühitində, xüsusilə uşaqlıq və gənclik illərini keçirdiyi Naxçıvan, Təbriz, İstanbul şəhərlərində sabitləşmiş, bu zəmində şairin sənətdə yaradıcılıq metod və üslubu birdəfəlik müəyyənləşmişdir.

H.Cavidin yaradıcılığında Şərq mövzusu öz komponentlərinə görə Qafqaz, Türkiyə, İran, Ərəbistan kimi əraziləri, habelə islam fikrinin məcrasında təşəkkül tapmış təsəvvüf fəlsəfəsini əhatə edir. Bu məqamda ümumşərq ədəbiyyatında yer tutan ənənəvi mövzuları da nəzərə almaq lazımdır. Məsələn, Şərqdə ən qədim dövrdən bəri həmişə şair və yazıçıları düşündürən iblislik (demonizm) adlı əfsanəvi problemin bədii təsvir və təqdimi H.Cavid sənəti üçün də səciyyəvidir və həmin proses elmi fikirdə şairin Şərqə bağlılığının xüsusi göstəricisi kimi mənalandırılmışdır.

Filosof-şairin Türkiyə və türk mövzusuna müraciəti ilk növbədə ümumtürk və turançılıq kimi aspektlərdən qiymətləndirilməlidir. Böyük sənətkar oğuz-türk xalqlarının, ümumiyyətlə, türk mənşəli bütün millətlərin qardaşlıq və həmrəyliyini bir ideya olaraq irəli sürürkən hər şeydən əvvəl bu xalqların tarixi köklərini, qədim mənşə ümumiliyini, keçmiş qəhrəmanlıq səhifələrindəki müştərəkliyi ön plana çəkirdi. Böyük iftixar və qürurla keçmişə arxalanıb gələcəyə doğru tərəqqi etməyi arzulayan H.Cavid həmvətənlərinə üz tutaraq yazırdı:

...Əvət, arslan yavrularım! Türk eli həp şanlıdır,

Almaz kimi ləkəsizdir, saqın qafil olmayın:
Əsr iyirminci əsrdir! Vəzifəsi pək ağır.
Marş irəli!
Qonşular yol aldı, geri qalmayın.[1]

H.Cavidin Şərqə münasibətinin üzə çıxarılmasında ən etibarlı mənbə elə şairin yaradıcılığıdır. Bu ideya **«1.2. H.Cavid yaradıcılığında Şərqə poetik münasibət»** yarımfəslində aydın təhlillərlə təsdiqlənməkdədir.

1905-1909-cu illərdə İstanbul Darülfünununun ədəbiyyat fakültəsində təhsil alan H.Cavid Türkiyə mühitini öyrənmiş, filosof Rza Tofiqdən dərs almış, Ə.Hüseynzadənin və Ziya Göy Alpın türkçülük, islamçılıq, müasirlik ideyalarını mənimsəmiş, dünyagörüşünü Şərq və Qərb filosoflarının əsərlərindən aldığı biliklərlə zənginləşdirsə də, daha çox Əbdülhəqq Hamid, Tofiq Fikrət və Namiq Kamalın yaradıcılığından təsirlənmişdir. Xüsusən Əbdülhəqq Hamid sənəti ilə tanışlıq H.Cavidin Şərqə, o cümlədən ümumən dünyaya, həyata, insana baxışında ciddi dəyişikliklər yaratmışdır.

H.Cavidin Şərqə bələdliyində Ə.Hamidin yaradıcılığının müsbət rolunu xüsusi dəyərləndirmək lazımdır. Onun «İştə bir divanədən bir xatirə» şeiri ilə Ə.Hamidin «Gəram» mənzum poeması arasında yaxınlıq, doğmalıq, ideya, poetik deyim eyniliyi görünməkdədir. «İştə bir divanədən» şeirində isə Şərqin keçmişinə, müxtəlif fəlsəfi görüşlərə, dinə, həmçinin bəşərin hazırkı vəziyyətinə münasibət bildirilir.

Şərqin poetik təqdimi baxımından «Türk əsirləri» şeirinin ayrıca təhlilə ehtiyacı vardır. Şairin türkə sonsuz sevgisini ifadə edən bu əsərdən aydın olur ki, Birinci Dünya müharibəsi zamanı ruslar tərəfindən əsir alınaraq Nargin adasında saxlanılan türklərin ağır vəziyyətdə yaşamaları şairin qəlbini ağrıdır.

Cavidi ən çox düşündürən, başqa romantiklərdə olduğu kimi Şərq geriliyi idi. Şair çox zaman Şərqə dair düşüncələrini qadın mövzusunda olan əsərlərində qələmə almışdır. Əlbəttə, qadın məsələsində H.Cavid digər romantiklərlə eyni mövqedə dayanır, qadının azadlığına Vətənin nicatı kimi baxırdı. Lakin mütəfəkkir sənətkarın qadın problemində bu mövqeyi tədricən inkişaf edib təkmilləşmişdir. Məsələn, hələ Türkiyədə oxuduğu illərdə yazdığı «Pənbə çarşaf» şeirində örtüyə tərəfdar çıxan şair sonralar cəmiyyətdə qadın heysiyyətinin tapdanmasına, mənəvi əzablarına dözə bilmir,

---

[1] Hüseyn Cavid. Əsərləri. Üç cilddə, III cild, Bakı: Azərbaycan Mədəniyyət fondu, 2003, s.10

artıq qadının azadlığa qovuşmasını zəruri sayır. Elə «Qadın» şeiri də şərq aləmində qadın hüquqsuzluğuna, bu ali xilqətin acı və kədərli taleyinə qarşı bir ittihamdır.

Hüseyn Cavidin dövrün, ictimai quruluşun qeyri-insani normaları altında əzilən şərqli lirik qəhrəmanlarının simasında humanizm, milli təəssübkeşlik, vətəndaş ruhunu görmək mümkündür («Sevinmə, gülmə, quzum!»). Digər tərəfdən şairin lirikasında canlandırılan surətlər əsasən yoxsul, qayğıya möhtac, səfil uşaqları, kimsəsiz, vərəmli qızları təmsil etməkdədirlər. Budur «Vərəmli qız», «Öksüz Ənvər», «Kiçik sərsəri» şeirlərinin mərkəzində müsibət və səfalətə düçar olmuş, uğursuz talelərini yaşamağa məhkum insanlar durur.

Birinci fəslin üçüncü yarımfəsli **«Hüseyn Cavid yaradıcılığında Şərq şeir şəkillərindən istifadə imkanları»** adlanır.

H.Cavidin Şərqə bağlılığını həm də onun ədəbi irsində geniş yer tutan şeir janrları təsdiqləməkdədir . Qeyd edək ki, XX əsrin əvvəllərində yeni şeirə, novatorluğa münasibət yaxşı olduğu kimi, köhnə şeirə, klassik lirik janrlara da münasibət normal xarakter daşıyırdı. Söz sənətinə vaqif olan H. Cavid Şərq xalqlarının ədəbiyyatında çox geniş yer tutmuş qəzəl, rübai, məsnəvi, müsəddəs, tərkibbənd və sair şeir formalarından yaradıcı şəkildə bəhrələnmişdir. O, hələ «Məktəbi-tərbiyə»də oxuyarkən «Gülçin», «Salik», «Arif» təxəllüsü ilə qəzəllər yazmış, özünün mənən Şərq poetikası ilə yaxınlığını ilk öncədən elan etmişdir:

Verdim o günki zülfi-pərişanə könlümü,
Saldı nigar o zülfüdə zindanə könlümü.
Yalvardım əczinən ona bəlkə xilas edə.
Zənciri –zülfdə bağladı divanə könlümü.
...Gülçin, binəva idim, oldum müridi-şeyx,
Yandırmışam mən atəşi-hicranə könlümü[1].

H.Cavid şeirində qəzəllə yanaşı rübai formasından da geniş istifadə edildiyini izləyirik. Xüsusən də «Xəyyam», «Peyğəmbər», «Knyaz» dramlarında maraqlı rübailərə rast gəlirik. Maraqlıdır ki, şairin bəzi rübailəri məhz Şərq dünyasından xəbər verməkdədir.

Keçənlərdən bizə əfsanə qaldı,
Sönüb Cəmşid, camı - peymanə qaldı.
O parlaq, möhtəşəm kəşanələrdən
Budur səssizcə bir viranə qaldı.[2]

---

[1] Hüseyn Cavid. Əsərləri. Üç clddə, I cild, Bakı: Azərbaycan Mədəniyyət fondu , 2003, s.49

[2] Hüseyn Cavid. Əsərləri. Dörd cilddə, IV cild, Bakı: Yazıçı, 1982, s. 32

Şairin daha çox işlətdiyi şeir formalarından biri məsnəvidir. «Keçmiş günlər», «Bahar şəbnəmləri» kitablarında toplanmış şeirlərin əksəriyyəti, o cümlədən «Məsud və Şəfiqə», «İlk bahar», «Hərb və fəlakət», «Qız məktəbində», «Məzlumlar üçün», «Bir xatirə», «Qadın», «Gecəydi» əsərləri məhz məsnəvi şəklindədir.

Əlbəttə, şair Şərq şeir janrlarına novatorcasına yanaşmışdır. Sübutdur ki, bəzən şeiri dördlüklə başlayan sənətkar əsərin axırıncı bəndlərini ya müsəddəs, ya da tərkibbənd şəklində qələmə almışdır. Məsələn, «Elmi bəşər» şeirinin altı bəndi dördlük, üç bəndi tərkibbənddir. Ümumiyyətlə, Cavid sənətində Şərq şeirinin rəngarəng şəkilləri ilə qarşılaşırıq. Təkcə «Şeyx Sənan» faciəsində məsnəvi, mürəbbe, müxəmməs, qəzəl, şərqi, türkü və nəğmə janrlarında şeirlərin işlədilməsi şairin geniş yaradıcılıq imkanlarına malik olduğunu göstərməkdədir.

«Dəniz pərisi», «Son baharda», «Kiçik sərsəri», «Öksüz Ənvər», «Hər yer səfalı», «Vərəmli qız», «Mən istərəm ki», «Sevinmə, gülmə, quzum» şeirləri dördlük (mürəbbe) şəklindədir. «Çəkinmə gül» şeirinin isə ilk bəndi dördlüklə yazılmasına baxmayaraq, əsər üçlük şeir formasında yazılmış bəndlərlə tamamlanır. Bundan başqa, Cavidin şeir və dramlarında müxəmməs -tərkibbənd, müsəddəs - tərkibbənd şəkillərinə də rast gəlirik Şair fikrin dəqiq və sərras ifadəsi üçün yeri gəldikcə müstəzad formasından da faydalanmışdır.

Hüseyn Cavidin Şərq haqqında düşüncələrini əks etdirən əsərlərindən biri də «Azər» poemasıdır ki, dissertasiyanın **«1.4 «Azər» dastanında Şərq»** yarımfəslində romantik şairin Şərqə baxışı, dünyanın bu qütbünə ünvanladığı arzu və istəkləri təhlil olunur. Maraqlıdır ki, Azər adi surət deyil, şərqli mənəviyyatını, idrak və psixoloji xüsusiyyətlərini özündə əks etdirən bir qəhrəmandır. Sözügedən məsələ Məsud Əlioğlu tərəfindən belə mənalandırılır: «Poemanın əsas qəhrəmanı konkret fərdi xüsiyyətləri ilə seçilən ayrıca xarakter deyildir, bəlkə əksinə, yeni dövrdə Şərq həyatını və Şərq mənəviyyatını, daha dəqiq deyilsə, Azərbaycan xalqını və bu xalqın psixoloji-mənəvi xüsuiyyətlərini, işıqlı və nəcib sifətlərini, ictimai-idrak və həyati anlayış təsirini ehtiva edən, ümumiləşdirən rəmzi-simvolik surətdir»[1].

Poemada özünügöstərən diqqətəlayiq cəhətlərdən biri Şərq və Qərb müqayisəsidir. Belə ki, əsərdə Şərqdə tanışlıqdan sonra həqiqət aramaq eşqiylə Qərbə səyahət edən Azər hər yerdə insanların yalan, qərəz və saygısızlığından yoğrulmuş mənəviyyatlarını, mərhəmətsiz daş

---

[1] Əlioğlu Məsud. Hüseyn Cavidin romantizmi. Bakı: Azərnəşr, 1975, s. 179-180

qəlblərini görür. Artıq Azərin fikrincə, inləyən Şərq ellərinin ahı Qərbin həris başları tərəfindən duyula bilməz. Soyuqqanlı Qərbi ayıltmaq üçün dəvət yox, mübarizə lazımdır. Şərq aləmi ancaq mübarizə ilə hürriyyətə yetişə bilər.

«Azər»də təqdim edilən Qərb elm və texnikada nə qədər irəlidədirsə, mənəviyyatca geridədir. Azər müasir düşüncə tərzinə malik Qərblə təmiz mənəviyyata, özünəməxsus milli dəyərlərə sahib Şərqi birləşdirməyin tərəfdarıdır.

Beləliklə, poemada iki dünya qarşılaşdırılır. Bir tərəfdə elm və texnika cəhətdən inkişaf etmiş, mərhəmətsiz, soyuqqanlı Qərb, digər tərəfdə mənəvi zənginliyə malik Şərq dayanır.

Müəllif əsarətdə yaşayan Şərq ellərindən söhbət açdıqca Cənubi Azərbaycanda yaşayan həmvətənlərinin faciəsini də unutmur. Fars şovinistləri və imperialist müdaxiləçilərinin zülmü altında inləyənlərin faciəsini Cavid poemanın «Kor Neyzən» hissəsində qələmə almışdır. Ümumiyyətlə, «Azər» poemasında Şərq ellərinin faciəli həyatı geniş lövhələrlə təsvirə alınsa da, şair bu qanaətdədir ki, Şərq mütləq bükülmüş belini düzəldib ayağa duracaq, mübarizəyə qalxacaq və qalib gələcəkdir.

Dissertasiyanın **«Hüseyn Cavidin dramaturgiyasında Şərq mövzusu»** adlanan ikinci fəsli dörd yarımfəsildən ibarətdir. **«2.1. «Şeyx Sənan» mövzusu və bəşərilik»** yarımfəslində H.Cavidin Şərq ədəbiyyatında məşhurlaşmış bir mövzuya müraciətinin səbəbləri, əsərdə bəşəri ideyaların tərənnümü kimi məsələlər təhlil olunmuşdur.

Mənşə etibarilə folklorla bağlı bu mövzuda hələ Caviddən əvvəl Şeyx Fəridəddin Əttarın (1118-1229) «Məcalisül-uşşaq» adında əsər yazdığını görürük. Eyni mövzuda Üzeyir bəy Hacıbəyov opera bəstələmiş (1908), Mehdi bəy Hacinski rus dilində risalə qələmə almışdır. Əlbəttə, Cavidin «Şeyx Sənan»ı Şeyx Fəriddədin Əttarın «Məcalisül-uşşaq»ından ilk növbədə bəşəri ideyalar daşıması ilə fərqlənir. Şeyx Fəridəddin Əttarın qəhrəmanı əvvəl şərab içərək Quranı yandırıb bütə səcdə edirsə də, sonra yenidən islama qayıdır, hətta tərsa sənəmə öz dinini qəbul etdirir. H.Cavidin Sənanı isə əqidəsində dönməzliyi ilə seçilir, eşqi yolunda ölümü seçərək Xumarla birlikdə özünü uçuruma atır, dahilik zirvəsi qazanır. Bu faciə Hüseyn Cavidin insanları ülviliyə, mənəvi təmizliyə, dahiliyə yüksələn sevgiyə və əbədiyyətə çağırışı idi. Şeyx Sənan islami təriqətdən uzaqlaşaraq yeni bir fəlsəfi təriqətin əsasını qoyur ki, bu da «böyük eşq», «bəşəri sevgi», «məhəbbət dini» təriqətidir.

Şeyx Sənan həqiqət axtarır və bu zaman bütün bəşər üçün son dərəcə gərəkli olan özünüdərk prosesinə məruz qalır. H.Cavidin fikrincə, mütləq həqiqət istəyən, Allahı görməyə çalışan insan onu pak könlündə aramalıdır. Şairin qəhrəmanı da qəlbini əsarət, cəhalət buxovlarından azad edərək dinini atır və Xumarın simasında ilahi eşqi tapır. Şeyx Sənan aradığı mütləq eşqi bulur və sübut edir ki, insan eşqi bütün hisslərdən güclüdür. «Şeyx Sənan» faciəsində Hüseyn Cavid dünyada bütün dini təəssübkeşliyə, bütün təriqətlərə qarşı çıxaraq yeni bir dinin yaranmasını bəyan edir ki, bu da hər şeydən yüksəkdə duran ülvi, mənəvi eşqdir.

Filosof-şair Hüseyn Cavidi daim məşğul edən problemlərdən biri insan həyatında və mənəviyyatında yer tutan ziddiyyətlər, yer üzərində xeyirlə şərin vəhdəti və mübarizəsi olmuşdur ki, eyni məsələlərdən **«2.2.Şərq mifologiyasının tipoloji həlli- «İblis»** yarımfəslində danışılır. Əlbəttə, Azərbaycan romantizminin yaradıcılarından olan H.Cavid cəmiyyətin və tarixin ən mürəkkəb suallarına cavab tapmaq istəyirdi və bu istək qüdrətli faciə ustadına «İblis»i yazdırdı.

İblis Şərq mifologiyasında, islamda dərin kök salmış, mifik, dini-mücərrəd obrazdır. Bu ada «Quran»da belə dəfələrlə rast gəlinir. Əvvəllər mələk olan İblisə Allah tərəfindən insana xidmət etmək buyrulur ki, bu əmrə qarşı çıxan İblis cəzalandırılır və o, göylər səltənətindən yerə, insanların arasına göndərilir. O gündən İblis insanlar arasında şər, pislik toxumu əkir.

Mövzusu bu əsatirdən alınmış «İblis» faciəsində iki əsas surət var: İblis və Arif. Bu iki qəhrəman insan qəlbindəki iki mühüm tendensiyanın -Xeyir və Şərin rəmzidir. Əsərdə Arif mənəvi təkamülə nail olmaqla, qəlbində mərhəmət kimi xoş və ülvi hissə yer verməklə hər cür pislik və fənalığa qalib gəlməyə çılışır. İblis isə Arifə həyatda olan haqsızlıqları, ədalətsizlikləri, insanların mənəvi əzab və əziyyətlərini, bir sözlə, həyatın sərt üzünü göstərməklə onun gözünü açmaq istəyir və nəhayət, arzularına çatır. Vaxtilə kor-koranə inandığı dəyərlər Arif üçün əhəmiyyətini itirir. Onun qəlbində təlatümlər baş qaldırır və ulu qüvvəti köməyə çağırıb zahirən nadanlığa qarşı üsyana qalxan gənc əql ilə hissin arasında çırpınır. Yer üzərində törədilən alçaqlıq və murdarlıqları, vəhşətləri dəf etmək üçün əqli ona istiqamət versə də, hissi əqlinin əksinə gələrək buna onun gücünün çatmayacağını inandırır.

Əsərin başlanğıcında pak və təmiz olan Arif sonda qardaş qatilinə çevrilir ki, bu isə artıq bir fərdin deyil, insanlığın faciəsidir. Onun təlatümlü günləri də məhz qəlbində İblisə yer verdikdən sonra

başlayır. Çılğın gənc bəzən vəhşi ehtiraslara müqavimət göstərmək istəsə də, İblisi lənətləsə də ruhunu əsir etmiş İblisin əlində acizdir. Hüseyn Cavidin təqdimatında İblis Arifin qəlbində fantastik və möhümi qüvvə kimi mücərrəd aləmdən, yəni qeybdən nazil olmamış, onun ikinci dünyası olan ruhi aləmində baş qaldırmışdır. Şairin qənaətincə, İblis yalnız zəif insanların qəlbinə yol tapır. Göylərdə-mistik aləmdə şəri axtarmaq düzgün deyil. Şəri qəlbimizdə axtarmalı, insan hər zaman öz əqlinə və nəfsinə hakim olmağı bacarmalı, məkrə uymamalıdır.

«İblis» əsərinin mövzusu həqiqətən olmuş, baş vermiş hadisələrdən alınmış, Birinci Dünya Müharibəsi, onun uğursuzluqla başa çatması, imperialist dövlətlərin ağalığı kimi məsələlər Cavid tərəfdən çox düzgün göstərilmiş, şər ocağı yaradanlar lənətlənmişdir.

İkinci fəslin üçüncü yarımfəsli **«Topal Teymur» tarixi dramında Şərq gerçəkliyi»** adlanır. Bu bir həqiqətdir ki, Hüseyn Cavid öz yaradıcılığında Şərq tarixinə ən çox müraciət edən şairlərdəndir. Onun 1926-cı ildə qələmə aldığı beşpərdəli «Topal Teymur» dramında da Şərq öz məğrurluğu , gözəlliyi və əzəməti ilə göz önündə canlanır.

Eyni mövzuya müraciətlə əsər yazan tək Cavid olmamışdır. Şairin müasiri Məmməd Səid Ordubadi də imperialist müharibələri illərində ikipərdəli «Teymur və İldırım Bəyazit» adlı pyes yazmışdır. Cavid isə məsələyə özünəməxsus tərzdə yanaşmış, Şərq fatehi Teymurla türk sultanı İldırım Bəyazit surətləri üzərində daha çox dayanmış, bu iki Şərq hökmdarını müsbət və mənfi xüsusiyyətləri ilə səciyyələndirmişdir. Maraqlıdır ki, əsərdə iki hökmdarın təqdimi həm də Şərq həyatı, Şərq ictimai münasibətləri, cəmiyyətdaxili təbəqələr, ziddiyyətlər haqqında dolğun təsəvvür yaradır. Əlbəttə ki, yaşanmış tarixin təsvirində Cavidin müəyyən məramı olmuşdur: «Şərq tarixinin dolaşıq, mürəkkəb və uğursuz bir səhifəsinə müraciət edən Hüseyn Cavid seçdiyi hadisə və məsələlərin tarixi gerçəkliyinə sadiq qalmaqdan daha ziyadə həmin hadisələrdən bir bəhanə kimi faydalanmaq və öz fəlsəfi-estetik mülahizələrini əsaslandırmaq məqsədini izləmişdir»[1].

«Topal Teymur» əsərində qələmə alınan iki Şərq hökmdarının, iki tarixi simanın müqayisəli təhlili eyni zamanda Şərq saraylarındakı ziddiyyətləri, Şərq əzəmətinin daxilində yer tutan mürəkkəblikləri də üzə çıxarır. Məsələn, Cavidin qələmə aldığı Teymur müdrik və tədbirlidir. İldırım Bəyazit isə bu xüsusiyyətlərdən məhrumdur. Teymur sarayı bu və ya digər siyasi-ideoloji məqsəd naminə sıx

[1] Əlioğlu Məsud.Hüseyn Cavidin ramatizmi.Bakı: Azərnəşr, 1975, s.199

birləşmişdir. İldırım Bəyazitin sarayında isə sərxoşluq, müxtəlif mövqelərin mübarizəsi hökm sürür. Əmir ayrı-ayrı ölkələri öz imperiyasında birləşdirir. Sultan öz ölkəsini belə müdafiə edə bilmir. Birincisi düşmənini qiymətləndirir, ikincisi düşmənini məsxərəyə qoyur, təhqir edir və s.

Bəli, Cavidin yaratdığı Teymur tarixdə olduğu kimi bir tərəfdən müharibə səhnələrini ən gözəl mənzərə sayan, digər tərəfdən daim məmləkətin inkişafını düşünən, Səmərqəndi abadlaşdıran, sənətkarlara və alimlərə yüksək ehtiram göstərən, xalqı idarəetmədə gücə yanaşı ağıl və fəziləti də gərəkli sayan bir tirandır. Teymur Şərq gerçəkliyidir. O, düşmənə düşmən, dosta dostdur. Fateh Teymur bütün Şərq mentalitetini özündə əks etdirir.

Hüseyn Cavidin Şərq tarixinə müraciətlə yazdığı əsərlərdən biri də «Peyğəmbər»dir.Əlbəttə, şair dinə, islama, Məhəmməd peyğəmbərə münasibətdə də özünəməxsus mövqe tutmuşdur ki, bu problem dissertasiyanın **«2.4.Hüseyn Cavid və İslam: «Peyğəmbər»** yarımfəslində elmi təhlilini tapmışdır.

«Peyğəmbər»i yazarkən şairi düşündürən məhz qlobal məsələlər, bəşəri ideyalar olmuşdur. Bu səbəbdən də əsərdə Cavidin fəlsəfi görüşləri və humanizmi Məhəmmədin dilindən səslənir.

«Peyğəmbər»də təsvir olunan hadisələrin bir çoxu, o cümlədən Məhəmmədin 40 yaşında özünün peyğəmbərliyə çatdığını bildirməsi, ətrafına tərəfdarlar toplayaraq İslam dinini möhkəmləndirməsi, Məkkədən Mədinəyə hicrəti, bütpərəstliyi məhv etmək üçün apardığı mübarizə, qılınc gücünə islamiyyəti əsaslandırması və s. demək olar ki, tarixdən bizə məlum olanların eynidir.

Cavid əsərini Mələklə Peyğəmbərin söhbəti ilə başlayır və Peyğəmbər Allahı görmək arzusunu bildirdikdə belə bir cavab alır ki, bu cəhd səmərəsizdir. Yalnız Tanrını duymaq, dərk etmək, qəlbi Allah eşqiylə nurlandırmaq mümkündür. Bundan sonra Mələk Məhəmmədə qaranlıq mühiti işıqlandırmağı tapşırır. Peyğəmbər insanları Allaha məhəbbətə çağırsa da, daşa basılır. Onun qarşısına çıxan Skelet söyləyir ki, məhəbbət ideyası bir xəyaldır. Qaniçən canavarlara bənzər insanlar dururkən məhəbbət ideyası «quru əxlaqi təlim»dən başqa bir şey deyil. Beləliklə, peyğəmbərliyinin ilk illərində hər acıya dözən Məhəmməd az sonra «sənəti kəlam»la ümumi haqq yoluna çağırmağın mənasızlığını görür, Skeletdən qılınc alır, din uğrunda silaha sarılmağı lazım bilir.

Mövzusu islam tarixindən alınsa da, müasirliyi ilə diqqəti cəlb edən «Peyğəmbər» əsərində Cavid dini çarpışmaların, müharibələrin əsl mahiyyətini açmağa çalışmış, insanları sülhə səsləmişdir.

Dissertasiyanın üçüncü fəsli **«Hüseyn Cavid və Şərq klassikləri»** adlanır. Bu fəsil üç yarımfəsildən ibarətdir. **«3.1. Hüseyn Cavid və Ömər Xəyyam»** yarımfəsli 1935-ci ildə qələmə alınan «Xəyyam» dramının təhlilinə həsr olunmuş, Şərqin materialist şair-filosofu Ömər Xəyyamın həyatından söz açılan bu əsərdə müəllif düşüncələrinin ifadəsi, real tarixdən alınmış surətin müasir ideyaya xidməti kimi məsələlər araşdırılmışdır.

Hüseyn Cavid «Xəyyam»ı yazarkən həm tarixi həqiqətlərə istinad etmiş, həm də özünün romantik təxəyyülünə arxalanmışdır. Xəyyam varlığın hikmətini anlayır, «sağır və dilsiz» göylərə inanmır, əksinə, bu fikirdədir ki, hər şeyin əsası təbiətdir. Xalq Xəyyamı sevir. Hətta Alp Arslan sarayının ən gözəl afəti Sevda da onun görüşünə gəlir.

Sevdanı görənə qədər Xəyyam fanatizmə, dinə, xurafata qarşı çıxan bir mütəfəkkir sənətkar idi. Sevdanı görəndən sonra isə o ancaq sevən bir aşiqə çevrilir. Lakin onun bu xoşbəxtliyi uzun sürmür. Sevdiyi gözəlin ölümü ilə qəhrəmanın xoşbəxt günləri sona çatır. Onun mənəvi-psixoloji vəziyyətini Məsud Əlioğlu belə açıqlayır: «Maddi-real aləmə, həyata istinad edərək elmi axtarışlar aparması Xəyyamı ruhun ölməzliyi, əşyanın əslini itirib yoxa çıxmaması, forma etibarilə dəyişməsi və tərkibcə başqalaşması müddəasına gətirib çıxarır. Sevdanın cənazəsinə müraciətlə Xəyyam ruhla bədənin bir-birindən ayrılmaz olduğunu, heçliyə çevrilmiş cismin və əbədiyyətə qovuşmuş ruhun sonralar başqa-başqa şəkillərdə yenidən canlandığını bildirir».[1]

Xəyyam mühitində dərk edilmir. Bu isə artıq onun faciəsidir. Müqayisə üçün qeyd edək ki, Hüseyn Cavid də öz dövründə eyni faciəni yaşamışdır. Əsərin sonunda qoca Xəyyamın gənclər əhatəsində qalması Cavidi yada salır və bu məqamda Hüseyn Cavid və Xəyyam eyniliyi akademik Məmməd Cəfərin diqqətini cəlb etmişdir: «Cavid yaradıcılığının son dövründə onun qədr-qiymətini bilən, onun sənətinə yüksək qiymət verən bir nəsillə... əhatə edilmişdi və bütün varlığı ilə bu gəncliyə bağlanmışdı... Bu nöqteyi-nəzərdən yanaşdıqda mütəfəkkir, dinsiz bir filosof şairin həyatını əks etdirən «Xəyyam» dramının son səhnəsində Cavidin özünü əhatə edən gəncliyə məhəbbət, ehtiram və etibarını duymamaq mümkün deyildir»[2]

---

[1] Əlioğlu Məsud. Hüseyn Cavidin romantizmi. Bakı: Azərnəşr, 1975, s. 167

[2] Cəfərov Məmmədcəfər. Hüseyn Cavid. Bakı: Azərnəşr, 1960, s. 232.

Hüseyn Cavidin yüksək dəyərləndirdiyi və yaradıcılığına müraciətlə əsər yazdığı Şərq klassiklərindən biri də Firdovsidir. Dissertasiyanın **«3.2. Cavid yaradıcılığında «Şahnamə» motivləri»** yarımfəslində «Səyavuş» mənzum faciəsinin yazılma səbəbləri diqqətə çəkilir, əsərin geniş təhlili aparılır, məlum və məşhur bir mövzuda da H.Cavidin özünəməxsus keyfiyyəti ilə səciyyələnən bir əsər yaratdığı təsdiqlənir.

Qeyd edək ki, əsli əsatirlə bağlı olan, daha sonra «Şahnamə» dastanının xariqüladə obrazlarından birinə çevrilən Səyavuş Şərq poeziyasında «talesiz insan» rəmzi kimi məşhurlaşmışdır.

Cavid bu əsəri «Səyavuş» dastanı əsasında yazsa da, bu mövzuya tamam başqa bir mövqedən yanaşmışdır. Məsələn, Firdovsinin «Şahnamə»sində müəllifi maraqlandıran İran-Turan mücadiləsi və bu mücadilənin tarixi köklərinin haradan qaynaqlandığını, əsərin qəhrəmanı Səyavuşun qətlinə də həmin düşmənçiliyin səbəb olduğunu göstərmək idi. Cavidi isə Səyavuşun bir insan kimi faciəsi, qəhrəman və xalq problemi, şəxsiyyət və mühit arasındakı ziddiyyətlər düşündürmüşdür.

Sarayda doğulan, lakin bir müddət Zabilistanda sadə kənd adamlarının əhatəsində tərbiyə alan Səyavuşun bir cəngavər səviyyəsinə yüksəlməsində Rüstəmin və kəndli insanların təsiri böyükdür. Səyavuşun qəlbi azadlıq eşqi ilə doludur. O, hər zaman Vətənin müdafiəsinə hazırdır. Gənc qəhrəmanın xarakteri, əxlaqı-psixoloji aləmi məhz xalq müdrikliyindən qidalanmışdır. Bununla belə, saray mühiti ilə kənd mühiti bir araya çıxmadığı kimi, Səyavuşun tərbiyəsi ilə saray ədəb-ərkanı arasında da kəskin bir uçurum yaranmışdır.

Öz sinfindən qoparaq bir müddət sadə və səmimi kənd adamlarının, qəhrəman Rüstəmin tərbiyəsi ilə böyüyən Səyavuşun qəlbinə mənəvi təmizlik və əxlaqi gözəllik hakim kəsilir. Saraylarda isə o, daim fitnə-fəsad görür və istər Əfrasiyab, istərsə də Keyxosrov sarayındakı çirkin həyatdan çox-çox ucada dayanması Səyavuşun faciəsinə səbəb olur. Ümumiyyətlə, Cavidin «Səyavuş» faciəsi böyük ustalıqla yazılmış, köhnə mövzuya yeni ruh verilmiş bir əsərdir.

İkinci fəslin **«Tanrı yaratdı, dövran məhv etdi, Heydər Əliyev ona ikinci ömür verib yaşatdı»** adlı üçüncü yarımfəslində H.Cavid sənətinin və şəxsiyyətinin sözün əsl mənasında xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən yüksək səviyyədə dəyərləndirilməsi diqqətə çəkilir.

1937-ci ildə həbs edilərək Sibirin İrkutsk vilayətinə sürgünə göndərilən və 1941-ci ildə sürgündə ikən dünyasını dəyişən Hüseyn

Cavid digər repressiya qurbanları kimi 1956-cı ildə bəraət aldı. Bundan sonra dahi şairin şəxsiyyətinə və sənətinə layiq bir sıra işlər görüldü. Belə ki, Bakıda və Naxçıvanda ev muzeyləri yaradıldı, əsərləri çap olundu və s. Lakin Cavidin qızı Turan xanımın da dediyi kimi, Hüseyn Cavidə əsl bəraəti Azərbaycana bir qərinədən artıq rəhbərlik etmiş, dünyaşöhrətli şəxsiyyət Heydər Əliyev verdi və onun təşəbbüsü ilə şairin məzarı tapılıb Vətənə qaytarıldı, qədim Naxçıvan torpağında Hüseyn Cavidin xatirəsinə möhtəşəm məqbərə ucaldıldı. Ümummilli liderimiz Heydər Əliyev məqbərənin açılışında Cavid sənətinə məhəbbətini belə ifadə etmişdir: «Hüseyn Cavid XX əsrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişaf etməsində misilsiz xidmətlər göstərmişdir. Hüseyn Cavid Azərbaycan xalqının mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridir. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır».[1]

Dissertasiyanın nəticə hissəsində tədqiqatın əsas tezis və müddəaları ümumiləşdirilmişdir.

Tədqiqatın əsas məzmunu aşağıdakı nəşrlərlə öz əksini tapmışdır.

1. Hüseyn Cavid və Şərq. Naxçıvan: Əcəmi, 2005, 208 s.
2. Hüseyn Cavid və Şərqə poetik münasibət / «Müasir təlim metodları və yeni pedaqoji texnologiyanın təlim-tərbiyə prosesində tətbiqi» mövzusunda keçirilən elmi-praktik konfransın mAteriallları. NMİ, 2004, s. 143-149
3. Cavid və Şərq qadını // Pedaqoji tədqiqatlar, № 1 (23). Bakı: 2005, s.122-127
4. «İblis» -Şərq mifologiyasının tipoloji həlli // Azərbaycanda elmin inkişafı və regional problemləri // Bakı: Nurlan, s. 293-299
5. «Şeyx Sənan» mənzum faciəsində Şərq motivi və müasirlik // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, 2005, № 16, s. 42-45
6. «Azər» dastanında Şərq ellərinin təsviri // «Mədəni- maarif» jurnalı, 2005, № 6, s. 44-45



[1] Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. (Nitqlər, məruzələr, çıxışlar). Bakı: Ozan, 1999, s.332

Л. С. Аскерзаде

# ГУСЕЙН ДЖАВИД И ВОСТОК
## РЕЗЮМЕ


Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во "Введении" обоснована актуальность темы, определены объект и предмет исследования, дана краткая история изучения темы, изложены цель и задачи, научная новизна, теоретическая и практическая значимость диссертационной работы.

Первая глава называется "Восток в поэзии Гусейна Джавида". В первом разделе уточняются факторы, обуславливающие тему Востока в творчестве Г. Джавида, в следуюшем разделе анализируются произведения поэта, посвященные Востоку, в третьей части главы изучаются восточные формы стихоложения, использованные им в своем творчестве, в конце же главы дается научная интерпретация поэтических раздумий художника о Востоке, отраженных в поэме "Азер".

Вторая глава, названная "Тема Востока в драматургии Гусейна Джавида", делится на четыре раздела. В первом разделе констатируется воспевание общечеловеческих идей в трагедии "Шейх Санан". Второй раздел содержит научный анализ трагедии Г.Джавида "Демон". В разделе "2.3. Восточная действительность в исторической драме "Топал Теймур" ("Тимур-хромой"), выявляются причины обращения Г. Джавида к исторической теме и высказываются новые научные мысли по этому поводу. В последней части второй главы рассматривается проблема "Г. Джавид и ислам" на материале произведения "Пророк".

Отношение Г.Джавида к классикам Востока излагается в третьей главе. В начале приводятся параллели между Г. Джавидом и О.Хайямом, затем исследуется трагедия "Сиявуш".

Третий раздел посвящен высокой оценке творчества Г. Джавида, данной выдающейся личностью — Гейдаром Алиевым.

В заключительной части диссертации обобщены тезисы и положения исследования.

L. S. Askerzade

# Huseyn Javid and the East

## RESUME

This dissertation consists of introduction, three chapters, conclusion and the list of the used literature.

In introduction the topicality of the theme is grounded, the object of the theme is determined, a brief history of the study of the topic is given the aim and the objectives of it ore shown.

The scientific novelty, the theoretical and practical importance of the research are shown.

The first chapter is called « The East in the poetry of H. Javid ». In the first of section of that chapter the main factors concerning the basis of the investigation of the topic of the East in H. Javid's creative activity are determined.

In the second section the works devoted to the East are analyzed in the third section the main oriental forms of writing works used by Javid are investigated. In the end of the first chapter the interpretation of the poetic thoughts of Javid reflected in the poem «Azer» are given.

The second chapter called « The theme of the East» is divided into four sections. The first section deals with the reflection of the ideas characteristic of all humanity in the tragedy «Sheyk Sanan». The second section involves the scientific analysis of the tragedy by Huseyn Javid «Demon».

The third section is about the Eastern reality in the historically tragedy «Topal Teymur» (Thymur the lime). Here the reasons of Javids address to the historical theme are grounded, new scientific ideas are presented. In the last part of this chapter the problem of Huseyn Javid and Islam on the material of the « Prophet » are researshed. The attitude of Huseyn Javid to the classics of the East is investigated in the third chapter.

At the beginning of the last chapter the parallels between H. Javid and Khayyam are given. Then the tragedy«Siyawush» is investigated. The third section is devoted to the objective value to H. Javid's creative activity by the all nation leader, prominent personality H. Aliyev.

The last section of the dissertation involves the main results and conclusions.

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

*На правах рукописи*

**ЛУТВИЯ СУЛЕЙМАН КЫЗЫ АСКЕРЗАДЕ**

# ВОСТОК В ПОЭЗИИ ГУСЕЙНА ДЖАВИДА

10.01.01-Азербайджанская литература

## А В Т О Р Е Ф Е Р А Т

Диссертации на соискание ученой степени кандидата филологических наук

НАХЧЫВАН -2005